


# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 51 (23.938)

16 mart 2022-ci il, çərşənbə

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika




Birləşmiş Ərəb Əmirliklərinin “Masdar” şirkəti tərəfindən Azərbaycanda inşa ediləcək 230 MVt gücündə Qaradağ Günəş Elektrik Stansiyasının martın 15-də Gülüstan sarayında təməlqoyma mərasimi keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib. Dövlətimizin başçısı tədbirdə çıxış edərək Qaradağ Günəş Elektrik Stansiyasının təməlinin qoyulmasını çox önəmli bir hadisə kimi qiymətləndirib. Prezident İlham Əliyev stansiyanın inşasına uğurlar arzulayıb, “Masdar” şirkətinə təşəkkürünü bildirib.

Birləşmiş Ərəb Əmirliklərinin energetika və infrastruktur naziri Suhail Al Mazrouei çıxış edərək şirkətin Azərbaycanda ilk dəfə olan istehlak səviyyəsində günəş enerjisi layihəsinin gerçəkləşdirilməsinə yardım etmək məqsədilə “Masdar” şirkətinə və Birləşmiş Ərəb Əmirliyinə etimad göstərdiyinə görə Azərbaycan Prezidentinə və dövlətimizə təşəkkürünü bildirib.

Azərbaycan Prezidenti İlham Əliyev və Birləşmiş Ərəb Əmirliklərinin energetika və infrastruktur naziri Suhail Al Mazrouei stansiyanın təməlini qoyublar.

***

Prezident İlham Əliyev həmin gün Birləşmiş Ərəb Əmirliklərinin energetika və infrastruktur naziri Suhail Al Mazroueinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

## Naxçıvanda şəhid ailələrinə və qazilərə mənzillər və avtomobillər təqdim olunub





Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***“Vətən uğrunda öz canlarını fəda etmiş qəhrəman övladlarımızın ailə üzvləri dövlət tərəfindən qayğı ilə əhatə olunmalıdır və biz bunu bu gün əyani şəkildə görürük. Öz sağlamlığını itirmiş, yaralanmış qazilər bütün dövlət orqanları tərəfindən daim qayğı ilə əhatə olunmalıdır və biz bunu təmin edirik”.*** Bu gün muxtar respublikada şəhid ailələrinə və müharibə iştirakçılarına hərtərəfli qayğı göstərilir. Bu kateqoriyadan olan vətəndaşlar mənzil və avtomobillərlə təmin olunurlar.



Martın 15-də – İlaxır çərşənbə günü 10 şəhid ailəsinə və qaziyə mənzillər, 10 Vətən müharibəsi iştirakçısına isə avtomobillər təqdim olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov ümummilli liderimiz Heydər Əliyevin ***“Azərbaycanın xoşbəxt gələcəyi Azərbaycan vətəndaşlarının Vətənə olan sevgisi, vətənpərvərliyi və millətimizin qüdrəti ilə bağlıdır”*** fikirlərini xatırladaraq demişdir: İkinci Qarabağ müharibəsində Lider-xalq birliyi və igid oğullarımızın qəhrəmanlığı xalqımıza böyük Zəfər qazandırdı. Bu gün Azərbaycanda şəhid ailələrinin və müharibə iştirakçılarının sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər görülür. Xalqımızın birlik və vətənpərvərliyinin ifadəsi olan Novruz bayramı ərəfəsində muxtar respublikada şəhid ailələrinin və müharibə iştirakçılarının mənzil və avtomobillərlə təmin olunması da bu tədbirlərin davamıdır.

Ali Məclisin Sədri şəhidlərimizin əziz xatirəsinə ehtiramını bildirmiş, şəhid ailələrini və qaziləri mənzillər və avtomobillərlə təmin olunmaları, eləcə də bütün şəhid ailələrini, veteranları qarşıdan gələn Novruz bayramı münasibətilə təbrik etmişdir.

Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Nicat Babayev çıxış edərək demişdir ki, muxtar respublikada İkinci Qarabağ müharibəsi şəhidlərinin ailələri və qazilərin mənzil və avtomobillərlə təminatı diqqətdə saxlanılmış, bugünkü təqdimatla birlikdə, ümumilikdə, 38 şəhid ailəsi mənzillə, 38 qazi avtomobillərlə təmin olunmuşdur. Həmçinin Vətən müharibəsi qazilərindən 56-na əlillik təyinatı aparılmış, 75 ailə özünüməşğulluq proqramına cəlb edilmişdir. Vətən müharibəsi şəhidlərinin ailə üzvləri, müharibə iştirakçıları və yaralananlar üçün yaradılmış Psixoloji Dəstək Xidmətində 40-dan artıq şəxsə xidmət göstərilmişdir. Bu günədək müvafiq kateqoriyadan olan 24 şəxsin muxtar respublika xaricində müalicə və müayinəsinə köməklik göstərilmiş, 19 nəfərin kredit borcları ödənilmiş, 32 ailənin məişət



şəraiti yaxşılaşdırılmış, 1 şəhid ailəsi üzvünün təhsil xərcləri qarşılanmışdır. Naxçıvan Muxtar Respublikasında şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzlərinin fəaliyyəti nəticəsində ötən müddətdə 126 şəhidin 251 ailə üzvünə vəsiqələr verilmiş, 277 şəhid ailəsi üzvünə Prezident təqaüdü, 39 uşaq üçün sosial müavinət, 2 nəfərə Vətən Müharibəsi Qəhrəmanı üçün Prezident təqaüdü təyin edilmişdir. Vətən müharibəsi iştirakçılarından 13-ü Naxçıvan Əlillərin Bərpa Mərkəzində müalicə almış, 21-nə texniki və yardımçı reabilitasiya vasitələri təqdim edilmişdir.

Nicat Babayev muxtar respublikada şəhid ailələrinə və müharibə ilə əlaqədar sağlamlıq imkanları məhdudlaşmış şəxslərə göstərilən diqqət və qayğıya görə minnətdarlıq etmişdir.

Sonra Ali Məclisin Sədri mənzillərin orderlərini və avtomobillərin açarlarını təqdim etmişdir.

Mənzillə təmin olunan şəhid baş leytenant Zülfü Rzayevin həyat yoldaşı Gülnar Rzayeva demişdir: “Həyat yoldaşım 2007-2010-cu illərdə Heydər Əliyev adına Hərbi Liseyin kursantı olmuş, hər zaman Ali Məclis Sədrinin liseyə göstərdiyi diqqət və qayğıdan bəhs etmişdir.

*Ardı 2-ci səhifədə*

O, daha sonra təhsilini Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində davam etdirmiş və 2015-ci ildə kəşfiyyatçı kimi ön xətdə xidmətə başlamışdır. 2016-cı ildə düşmənin törətdiyi təxribata qarşı həyata keçirilən əməliyyatlarda fəal iştirak etmiş, Lələtəpə yüksəkliyinin azad olunmasında şücaət göstərmişdir. Buna görə 2017-ci ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən "İgidliyə görə", 2018-ci ildə "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 100 illiyi (1918-2018)" yubiley medalı ilə təltif olunmuşdur. Xidmətdə olduğu dövrdə nümunəvi zabit kimi diplom və fəxri fərmanlara layiq görülmüşdür. 2020-ci il sentyabrın 27-də İkinci Qarabağ müharibəsinin başlandığı ilk gündən düşmən sədlərini öz döyüş yoldaşları ilə birgə yarmış və qəhrəmancasına şəhidlik zirvəsinə ucalmışdır. Ölümündən







sonra ölkə başçısı cənab İlham Əliyevin müvafiq sərəncamları ilə "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur. Bir zamanlar sizin qarşınızda təhsildə uğur qazanmış gənc bir tələbə kimi, bu gün isə şəhidin həyat yoldaşı kimi dayanmışam. Bu, nə qədər ağır və çətin olsa da, bir o qədər fəxrli və qürurludur". Gülnar Rzayeva göstərilən diqqət və qayğıya görə bütün şəhid ailələri adından ölkə Prezidenti və Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Ali Məclisin Sədri şəhid ailələrinə və qazilərə rahat həyat arzulamışdır.

Tədbir çay süfrəsi arxasında davam etmişdir.

Sonda xatirə şəkli çəkdirilmişdir.

Şəhid ailələrinə və qazilərə verilən 2 və 3 otaqlı mənzillər Kəngərli rayonunun Qıvraq qəsəbəsində, Şərur, Culfa və Şahbuz şəhərlərindəki yeni yaşayış binalarında yerləşir. Tam təmir olunan mənzillərə mebel dəstləri qoyulmuş, lazımi məişət şəraiti yaradılmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Moskva müqaviləsi və Naxçıvanın muxtariyyət statusu

***XX əsrin 20-ci illərində Azərbaycanda, eləcə də Naxçıvan diyarında baş verən hadisələr çox mürəkkəb, ziddiyyətli və çətin olmuşdur. Azərbaycanın düşdüyü daxili, qarşılaşdığı beynəlxalq vəziyyət elə ağır idi ki, bir sıra hallarda Naxçıvan bölgəsinə lazımi səviyyədə kömək göstərə bilmirdi. Bundan istifadə edən məkrli düşmənlərimiz olan erməni daşnakları Naxçıvan diyarına sahib olmaq üçün bütün vasitələrdən istifadə edirdilər. Yaranmış vəziyyətdən istifadə edən erməni qaniçənləri siyasi və hərbi yolla Naxçıvanı ələ keçirmək uğrunda mübarizəyə başlamışdılar. Bir sıra kapitalist dövlətlərinin himayəsindən, yardım və dəstəyindən istifadə edən ermənilər Naxçıvan diyarına hərbi basqınlar edir, qırğınlar törədir, şəhər və kəndləri dağıdır, ağlasığmaz vəhşiliklər törədirdi. Lakin yerli əhalinin inadlı mübarizəsi, qəhrəmanlığı sayəsində onlar öz məkrli niyyətlərinə nail ola bilmirdilər. Bununla belə, 1918-1920-ci illərdə erməni daşnaklarının hərbi basqınları nəticəsində Naxçıvan diyarında faciəli hadisələr baş vermişdi. Bu hadisələr böyük kapitalist dövlətlərinin müdaxiləsi, ikili siyasət yeritmələri, qonşu dövlətlərin müəyyən münasibəti Naxçıvan məsələsini beynəlxalq müstəviyə çıxarmışdı. Nəticədə, bu problem təkcə ölkə daxilində deyil, həm də qonşu ölkələrdə və beynəlxalq təşkilatlarda müzakirə edilmişdi. Naxçıvan diyarının gələcək tarixi taleyində, onun Azərbaycanın tərkibində muxtariyyət statusunda saxlanılmasında keçən əsrin 20-ci illərində bağlanan beynəlxalq müqavilələrin böyük rolu olmuşdur.***

20-ci illərdə beynəlxalq münasibətlərdə və dünyada yaranmış şəraitlə əlaqədar Türkiyə ilə Rusiyanın yaxınlaşmasına, onlar arasında isti münasibətlərin və son nəticədə bu dövlətlər arasında müəyyən müqavilələrin baş tutmasına gətirib çıxardı. Əslində, bir sıra dövlətlər Türkiyə-Rusiya yaxınlaşmasını istəmirdilər. Çünki Birinci Dünya müharibəsində qalib gəlmiş böyük dövlətlər bir tərəfdən Türkiyəni məğlub edib, özlərindən asılı vəziyyətə salmaq, digər tərəfdən isə Rusiyada bolşevik hökumətini devirmək, inqilabi Türkiyənin köməyi ilə çevrilişlə Azərbaycanda hakimiyyətə gəlmiş bolşevik hökuməti ilə yaxınlaşmasına yol verməməyə çalışırdılar.

Azərbaycanda Sovet hakimiyyətinin qələbəsindən sonra da daşnak silahlı qüvvələrinin təcavüzkar hərəkətləri nəticəsində Naxçıvan diyarında gərginlik hələ də davam edirdi. RSFSR hökumətinin daşnak hökuməti ilə danışıqlar vasitəsilə münaqişəni həll etmək cəhdi baş tutmadı.

XI Ordunun köməyi ilə 1920-ci il iyulun 28-də Naxçıvan diyarında Sovet hakimiyyəti quruldu və Naxçıvan SSR elan edildi, respublikanın ali hakimiyyət orqanı – Naxçıvan İnqilab Komitəsi yaradıldı. Avqustun 10-da Naxçıvan İnqilab Komitəsi Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanova məktub göndərdi. Məktubda deyilirdi: "Naxçıvan camaatının çox böyük əksəriyyətinin qərarı ilə Naxçıvan diyarı özünü Azərbaycan SSR-in ayrılmaz tərkib hissəsi hesab etmişdir".

Rusiya rəhbərlərinə gəldikdə isə onlar Türkiyə ilə diplomatik münasibətlər yaratmaq istəsələr də, Ermənistandan Türkiyəyə qarşı bir vasitə kimi də istifadə etməyə çalışırdılar. Ermənistan, Azərbaycan və Türkiyənin qarşılıqlı münasibətləri məsələlərinin həllində İ.Stalin Rusiyanın mənafelərindən çıxış edərək həmişə Ermənistanın mövqeyini müdafiə edirdi. O deyirdi: "Əgər bilmək istəyirlərsə ki, Zəngəzur və Naxçıvan kimə məxsus olmalıdır, onları Ermənistanın indiki hökumətinə vermək olmaz, sovet hökuməti olanda vermək olar". Stalinin bu çıxışından 25 gün sonra Ermənistanda Sovet hakimiyyəti quruldu. Bu o demək idi ki, Stalin və Rusiya rəhbərliyi də Zəngəzur və Naxçıvanı Ermənistana vermək istəyirdi. Ermənistan bolşeviklərin nəzarətinə keçən kimi Azərbaycan Hərbi İnqilab Komitəsi Moskvanın təzyiqi ilə 1 dekabr 1920-ci ildə bəyanatla çıxış etdi. HİK sədri N.Nərimanovun imzası ilə mətbuatda çıxan bəyanat Rusiyanın diktəsi ilə yazılmışdı və "iki sovet respublikası arasında ərazi mübahisələrinin" Azərbaycanın milli mənafelərinə zidd şəkildə həll edilməsinə yönəlmişdi.

Məlum Bəyanatdan sonra Naxçıvan bölgəsində daxili vəziyyət xeyli mürəkkəbləşmiş, onun üstündə mübahisə və münaqişələr səngiməkdənsə xeyli kəskinləşmişdi. Naxçıvan məsələsi Rusiya-Ermənistan və Türkiyə-Ermənistan danışıqlarında mühüm yer tuturdu. Ermənistan Rusiya və Türkiyə arasında siyasi manevrlər edərək onların münasibətlərindən və yaranmış şəraitdən istifadə etməyə çalışırdı. Rusiyaya gəldikdə isə o, Türkiyə ilə yaxınlaşmaq xəttini yeritsə də, erməniləri də müdafiə etməsini gizlətmirdi. Ermənistan isə Naxçıvan və başqa ərazilərlə bağlı niyyətlərini həyata keçirmək üçün ən çox Rusiyaya ümid bəsləyirdi. Ermənistan 1920-ci il dekabrın 2-də həm Rusiya, həm də Türkiyə ilə müqavilə bağladı. RSFSR ilə Sovet Ermənistanı arasında bağlanan hərbi-siyasi sazişə görə keçmiş İrəvan quberniyasının Ermənistanın tərkibinə daxil olmasının Sovet hökuməti tərəfindən mübahisəsiz tanınması qəbul edilirdi. Türkiyə ilə Ermənistan arasında bağlanan Gümrü (Aleksandropol) müqaviləsi Rusiya və onun təhriki ilə Ermənistan tərəfindən qəbul edilmədi. Lakin bununla belə bu müqaviləyə görə, Naxçıvan bölgəsinin düşmən əlinə keçməməsi üçün "həmin ərazidə hələlik Türkiyənin himayəsində yerli hökumət yaradılması" qərara alınmışdır.

1920-ci il dekabrın 28-də Ermənistan SSR Hərbi İnqilab Komitəsi bəyanat ilə çıxış edərək, Naxçıvan əhalisinə öz müqəddəratını azad surətdə təyin etmək hüququ verildiyini bildirdi. Lakin 1921-ci ilin əvvəllərindən başlayaraq heç bir bəyanat verməmiş kimi, yenə də Naxçıvana qarşı haqsız ərazi iddiaları irəli sürdü.

1920-ci ildə Türkiyə xalqı öz vətəninin müstəqilliyi uğrunda mübarizə aparırdı. Türkiyənin inqilabi hökuməti Sovet Rusiyası ilə dostluq əlaqələri yaratmışdı. 1920-ci il aprelin 26-da Türkiyə Böyük Millət Məclisi yardım üçün V.İ.Leninə müraciət etdi. Həmin ilin yayından başlayaraq Türkiyə hökuməti Rusiya ilə diplomatik münasibətlər qurmaq və iki ölkə arasında dostluq müqaviləsi imzalamaq üçün fəallığını artırdı və bunun üçün Bəkir Sami bəyin başçılığı ilə nümayəndə heyəti Moskvaya gəldi. Danışıqlar nəticəsində sovet-türk müqaviləsinin layihəsi hazırlandı. Gələcəkdə Rusiya-Türkiyə danışıqlarının Bakıda keçirilməsi razılaşdırıldı. Lakin bir qədər sonra RSFSR XXİK G.Çiçerin konfransın Moskvada keçiriləcəyini və burada Azərbaycan və Ermənistan nümayəndələrinin də iştirak edəcəyini bildirdi. Əslində, bununla G.Çiçerin konfransa Azərbaycanı və Ermənistanı qatmaqla həm bu dövlətlərin xarici siyasətini öz əlində cəmləşdirmək, onları Türkiyəyə qarşı qoymaq, həm də gələcəkdə Güney Qafqazdakı niyyətlərini həyata keçirmək üçün zəmin hazırlamaq istəyirdi.

Türkiyə bu təkliflə razılaşmadı. Onlar Azərbaycan, Gürcüstan və Ermənistanla müqavilə bağlamaq istəyirdi. Üstəlik, Türkiyə bildirirdi ki, onların Azərbaycanla heç bir mübahisəli məsələsi yoxdur. Ermənistana gəldikdə isə, Türkiyə Gümrü (Aleksandropol) müqaviləsini qüvvədə hesab edir və ondan imtina etmək istəmirdi.

1921-ci ilin fevral ayında Ankara hökumətinin yeni xarici işlər naziri Yusif Kamal bəyin başçılığı ilə Əli Fuad və doktor Rza Nurdan ibarət diplomatik nümayəndə heyəti Moskvaya gələrək yeni danışıqlara başladı. Danışıqlarda Rusiya tərəfindən XXİK G.Çiçerin və RSFSR MİK-in üzvü C.Qorxmazov iştirak edirdi. Müzakirələr çox gərgin keçmiş və hətta danışıqlar bəzən pozulmaq həddinə çatmışdı. Bir sıra məsələlərlə yanaşı, danışıqlarda Naxçıvan məsələsinə də xüsusi əhəmiyyət verilmişdi. Türkiyənin bu məsələyə böyük önəm verməsi bölgənin strateji və geosiyasi mövqeyi ilə yanaşı, həm də Naxçıvanın Türkiyə-Azərbaycan əlaqələrində ən yaxın məsafədə yerləşməsi idi. Buna görə də Mustafa Kamal Paşa Yusif Kamal bəyə Naxçıvanın türk qapısı olduğunu xatırlatmış və buna görə hərəkət edilməsini bildirmişdi. Y.Kamalın xatirələrindən bəlli olur ki, danışıqlarda Naxçıvana dair müzakirələr xeyli uzanmış, İ.Stalin "Naxçıvan üzərində nə üçün bu qədər israr edirsiniz?" sualına da "orası türk qapısıdır, ondan" cavabını almışdı.

Moskva danışıqlarında Azərbaycanın təmsilçisi B.Şahtaxtinskinin mühüm xidməti olmuşdur. Belə ki, o, 1921-ci il martın 1-də V.İ.Leninə göndərdiyi məktubda Naxçıvan, Zəngəzur, Dağlıq Qarabağ ərazilərinin gələcəyi ilə bağlı narahatlıqları çatdırmış, bu mahalların milli tərkibi və coğrafiyasına dair arayışları da əlavə etmiş, Güney Qafqazda sərhəd məsələləri və xüsusilə də Naxçıvan bölgəsi ilə bağlı faydalı təkliflər vermişdi. Lenin bunlarla tanış olduqdan sonra onu Siyasi Büroya göndərmişdi. B.Şahtaxtinskinin məktubuna martın 16-da Stalinin, Çiçerinin və başqalarının iştirakı ilə baxılmış, onun təklifləri nəzərə alınmaqla Azərbaycanın himayəsində Naxçıvana muxtariyyət statusu verilməsi haqqında qərar qəbul olunmuşdu. Bütün bunlar Moskva müqaviləsində ifadə olundu. Bir aya yaxın davam etmiş danışıqların yekunu 1921-ci il martın 16-da imzalanmış "Dostluq və qardaşlıq haqqında" RSFSR-Türkiyə müqaviləsində öz əksini tapdı. Moskva müqaviləsi 16 maddədən və 2 əlavədən ibarət idi.

Müqavilə ilə tərəflər onlara zorla qəbul etdirilən ikitərəfli və beynəlxalq müqaviləni rədd edirdilər. Türkiyə hökuməti tərəfindən qəbul edilməyən müqaviləni Rusiya hökuməti də rədd edirdi. Türkiyə Batum şəhərinə və limanına suverenlik verilməsinə razı olurdu. Bu şərtlə, ona qanuni idarəçilik, geniş muxtariyyət, vətəndaş hüququnun qorunması haqqı verilməli idi. Tərəflər Qara dənizin beynəlxalq statusu ilə bağlı razılığa gəlirdilər. Bu, Türkiyənin suverenliyinə, təhlükəsizliyinə, o cümlədən İstanbulun təhlükəsizliyinə xələl gətirməməli idi. Rusiya

*Ardı 3-cü səhifədə*

işğal rejiminin hər hansı ölkənin azad milli inkişafı ilə bir araya sığmadığını göstərirdi. Tərəflər konsulluq münasibətləri qurmalı, iqtisadi və maliyyə məsələlərinə dair saziş imzalamalı idilər. Onlar Qafqaz respublikaları qarşısında öhdəlik götürürdülər.

Moskva müqaviləsinin üçüncü maddəsi və I (C) əlavəsi bilavasitə Naxçıvanla bağlı idi. Müqavilənin 3-cü maddəsinə əsasən belə bir qarşılıqlı qərar qəbul edildi ki, Naxçıvan vilayəti bu müqavilənin I (C) əlavəsində göstərilən sərhədlərdə Azərbaycanın himayəsi altında həmin protektoratı Azərbaycanın heç bir üçüncü dövlətə güzəştə getməməsi şərtilə muxtar ərazi təşkil edir. “Naxçıvan ərazisi” adlı I (C) əlavəsində bölgənin sərhədləri müəyyənləşdirildi: “Ararat stansiyası – Saray bulaq dağları – Gömürlüdağ – Sayatdağ – Qurdqulaq kəndi – Həməsür dağı – 8022 yüksəkliyi – Kükü dağı və keçmiş Naxçıvan qəzasının şərq inzibati sərhədi”. Beləliklə, Rusiya hökumətinin ermənipərəst mövqeyinə və erməni kommunist riyakar siyasətinə baxmayaraq, 1921-ci il yanvar referendumunun nəticəsi, Naxçıvan əhalisinin qətiyyətli, dönməz iradəsi, Türkiyənin ədalətli mövqeyi və Behbud ağa Şahtaxtinski kimi milli mənafelərdən çıxış edən siyasi xadimlərin səyləri ilə Naxçıvan Azərbaycanın tərkibində saxlanıldı. V.İ.Lenin Türkiyə ilə sülh sazişindən danışarkən demişdi ki, bu “bizi Qafqazdakı daimi müharibələrdən xilas edir”. Lakin bu sözlər özünü doğrultmadı. N.Nərimanov qeyd etmişdir ki, “Sovet Rusiyası və Türkiyə ilə müqaviləyə əsasən Naxçıvan Azərbaycanın protektoratlığı altında müstəqil respublika elan olunur. Orada bizim nümayəndəmiz olacaqdır və biz bütün münasibətlərdə Naxçıvana xidmət edəcəyik”. Yusif Kamal bəy isə yazmışdır ki, “Naxçıvan müsəlmanları bir daha soyqırıma məruz qalacağı halda türk ordusunun buna biganə qalmayacağı rəsmi olaraq sənədləşdirilmişdir”.

Moskva müqaviləsinin imzalanmasının böyük tarixi əhəmiyyəti vardır. İlk növbədə, bu müqavilə Rusiya ilə Türkiyə arasında mövcud olan problemləri həll etdi. Rusiya və Türkiyə sıx ittifaqda birləşdi, təbii müttəfiqə çevrildilər. Moskva müqaviləsi Azərbaycanın bütövlüyünü qorudu və Naxçıvanın ərazi mənsubiyyəti məsələsinə aydınlıq gətirdi. Bu müqaviləyə görə, qədim türk-oğuz yurdu olan Naxçıvan Azərbaycan sərhədləri içərisində qaldı. Bütün bunlarla bərabər, erməni daşnakları XX əsrboyu Naxçıvan iddialarından əl çəkməmiş, 90-cı illərin əvvəllərində buraya silahlı basqınlar etmiş, Moskva və Qars müqavilələrinin ləğv edilməsi üçün xeyli fəallaşmışlar. Son illərdə isə onlar bu barədə bir sıra dövlətlərə və beynəlxalq təşkilatlara müraciət etmişlər.

Ümummilli liderimiz Heydər Əliyev 1992-ci ilin mart ayında Türkiyə Cümhuriyyətində olarkən Moskva və Qars müqavilələrini söhbət mövzusuna çevirmiş, bir sıra məsələləri dərindən açıqlamış (xüsusilə muxtar respublikanın statusu məsələsi) və bu müqavilələrin xalqımızın həyatındakı tarixi rolunu yüksək qiymətləndirmişdir. Ulu öndər demişdir: ***“Əgər Naxçıvanı Azərbaycandan ayıran Azərbaycan torpaqlarının, yəni Zəngəzur mahalının vaxtilə Ermənistana verilməsi olmasaydı, həlbə də, heç Naxçıvanın muxtariyyəti də lazım deyildi. Azərbaycan vahid əraziyə malik olan bir ölkə idi”.***

Naxçıvanın muxtariyyət statusu bu gün qüvvədə olan, imzalanmasından 101 il keçən Moskva beynəlxalq müqaviləsi ilə təsdiqlənir. Bu muxtariyyət milli-etnik yox, sırf siyasi amillərlə, Naxçıvanın özünəməxsus geopolitik və tarixi-coğrafi mövqeyi ilə şərtlənmişdir. Müqaviləni imzalayan heç bir dövlət onu birtərəfli qaydada ləğv edə bilməz. Çünki bu, beynəlxalq müqavilələr haqqında 1969-cu il Vyana konvensiyasına, 1975-ci il Helsinki müşavirəsinin Yekun aktına münasibətdə saymazlıq kimi qiymətləndirilir.

*Naxçıvana Azərbaycanın tərkibində muxtariyyət statusunun verilməsi beynəlxalq Moskva müqaviləsi ilə rəsmiləşdirilmişdir. Özü də müddətsiz dövr üçün. Bu müqavilənin müddətsiz bağlanması onun tarixi əhəmiyyətini daha da artırmış olur. Dövlətlərarası münasibətlər baxımından bu növ müqavilələr daimilik xarakterinə malikdir. Mübaliğəsiz demək olar ki, ifrat erməni millətçilərinin Moskva müqaviləsini qüvvədən salmaq üçün dəfələrlə müxtəlif hiylələrə əl atmalarına baxmayaraq, bu tarixi sənəd uzun illərdir ki, özünün həyat vəsiqəsini daşıyır və Naxçıvanın təhlükəsizliyini şərəflə qoruyur.*

**İsmayıl HACIYEV**
***AMEA Naxçıvan Bölməsinin sədri, akademik***

## Əməkdar həkimin 70 illik yubileyi qeyd edilib

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Naxçıvan Muxtar Respublikasının Əməkdar həkimi, Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının Uşaq nevroloji şöbəsinin müdiri Yazgül Rzayevanın 70 illik yubileyi qeyd olunub.*



Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Emin Məmmədov bildirib ki, 15 mart 1952-ci ildə Naxçıvan şəhərində anadan olan Yazgül Rzayeva 1975-ci ildə Azərbaycan Tibb İnstitutunu bitirmiş və 1976-cı ildən Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasında həkim-nevropatoloq kimi fəaliyyətə başlamışdır. 1991-ci ildən həmin xəstəxananın Nevrologiya şöbəsinin müdiri vəzifəsinə təyin olunmuş və hazırda həmin vəzifədə fəaliyyətini davam etdirməkdədir.

O həm də ictimai fəaliyyəti ilə fərqlənmişdir. 1993-cü ildən Yeni Azərbaycan Partiyasının üzvü olan Yazgül Rzayeva Naxçıvan Muxtar Respublikası Ali Məclisinin III, IV, V və VI çağırış deputatı, Ali Məclisin İnsan hüquqları, beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavinidir.

Qeyd olunub ki, Yazgül Rzayeva həkimlik peşəsi ilə yanaşı, pedaqoji fəaliyyətlə də məşğul olmuşdur. 2001-ci ildən Naxçıvan Dövlət Universitetində baş müəllim kimi fəaliyyət göstərməklə həkim kadrların hazırlanmasına öz töhfəsini verməkdədir.

Əhalinin sağlamlığı keşiyində dayanan tibb işçiləri kimi Yazgül Rzayevanın da əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilmişdir. O, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2000-ci il 6 mart tarixli Sərəncamı ilə “Naxçıvan Muxtar Respublikasının Əməkdar həkimi” fəxri adına layiq görülmüş və Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 7 mart tarixli Sərəncamı ilə “Tərəqqi” medalı ilə təltif edilmişdir.

Emin Məmmədov Yazgül Rzayevanı Naxçıvan Muxtar Respublikası Ali Məclisi adından təbrik edib, ona cansağlığı, fəaliyyətində uğurlar arzulayıb.

Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri Niyazi Novruzov muxtar respublikada səhiyyəyə göstərilən diqqət və qayğıdan söz açaraq vurğulayıb ki, ölkəmizdə səhiyyənin cəmiyyət və dövlət həyatında ən mühüm sahəyə çevrilməsi, onun inkişaf və tərəqqisi xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Bu gün dövlət başçısı cənab İlham Əliyevin ulu öndərin müəyyənləşdirdiyi yolu uğurla davam etdirməsi səhiyyə sisteminin də inkişafına stimul verib. Qəbul olunmuş Dövlət proqramlarının icrası insanlara göstərilən tibbi xidmətin səviyyəsinin yüksəlməsinə, əhəmiyyətli dərəcədə yaxşılaşmasına müsbət təsirini göstərib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin ***“Dövlətimizin ən qiymətli incisi onun vətəndaşlarıdır”*** prinsipi əsas götürülərək muxtar respublikada əhalinin sağlamlığının qorunması istiqamətində həyata keçirilməli olan məqsədyönlü tədbirlər diqqət mərkəzində saxlanılıb. Səhiyyə müəssisələri üçün yeni və müasir binaların tikintisi, onların maddi-texniki bazalarının gücləndirilməsinə ciddi önəm verilir.

Bildirilib ki, xalqımız tarixən həkimlik sənətinə ən ülvi bir peşə, həkimə müqəddəs bir şəxs kimi baxıb. Sənətini yaxşı bilən, xalqın sağlamlığı keşiyində ləyaqətlə dayanan həkimlərə böyük ehtiram göstərilib. Belə həkimlərdən biri də Yazgül Rzayevadır. O, pediatriya sahəsində, xüsusən də uşaq nevrologiyasının inkişafı və tərəqqisində xüsusi xidmətlər göstərmişdir.

Nazir çıxışında yubilyarı təbrik edib, ona gələcək fəaliyyətində uğurlar arzulayıb, göstərilən diqqət və qayğıya görə Ali Məclis Sədrinə minnətdarlığını bildirib.

Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının baş həkimi Rəhim Rəhimov bildirib ki, muxtar respublikada səhiyyənin inkişafında mühüm xidmətlər göstərmiş həkimlər sırasında Yazgül Rzayevanın adı layiqli yerlərdən birini tutur. Yüzlərlə körpəyə sağlamlıq bəxş edən, gördüyü bu nəcib işdən həzz alan Yazgül həkim özünün biliyi, təcrübəsi, peşəkarlığı və şəxsi keyfiyyətləri ilə tanınır.

Tədbirdə illərdir, çiyin-çiyinə çalışan iş yoldaşları və gənc həkimlər yubilyar həmkara təbriklərini çatdırıblar.

Sonda Naxçıvan Muxtar Respublikasının Əməkdar həkimi Yazgül Rzayeva göstərilən diqqət və qayğıya görə ölkə başçısına və Ali Məclisin Sədrinə minnətdarlığını bildirib.

**✍ Ramiyyə ƏKBƏROVA**

## Naxçıvan folkloru ilə bağlı araşdırmalar iki monoqrafiyada əksini tapıb



*AMEA Naxçıvan Bölməsində Naxçıvan folklor örnəklərinin tədqiqinə həsr olunmuş iki monoqrafiyanın təqdimatı keçirilib.*

Bölmənin sədri, akademik İsmayıl Hacıyev tədbiri açaraq muxtar respublikada son illər mənəvi dəyərlərin, folklor nümunələrinin tədqiqi ilə bağlı görülən işlərdən danışıb. Təqdim edilən monoqrafiyaların həmin işlərin uğurlu davamı olduğunu söyləyən alim əvvəlcə tədqiqatçıların elmi fəaliyyətləri, qısa müddətdə əldə etdikləri nailiyyətlərdən danışıb. Diqqətə çatdırıb ki, həm İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun icraçı direktoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Elxan Məmmədovun “Folklorda janr daxilində janr (Naxçıvan örnəkləri əsasında)”, həm də institutun Folklorşünaslıq şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Aytən Cəfərovanın “Naxçıvan halay və yallıları: tarixi, mənşəyi və fəlsəfi anlamı” adlı monoqrafiyaları əhatəlilik səviyyəsi, dolğunluğu ilə hər iki tədqiqatçının öz sahəsinə bəslədiyi sevginin, peşəkarlığın göstəricisidir. Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun dəstəyi ilə nəşr olunan “Naxçıvan halay və yallıları: tarixi, mənşəyi və fəlsəfi anlamı” adlı yeni monoqrafiya və digər yeni nəşr muxtar respublika rəhbərinin diqqət və qayğısı, tapşırıq və tövsiyələri ilə folklorumuzun tədqiqi istiqamətində görülən ardıcıl işlərin, aparılan tədqiqatların uğurlu davamıdır.

Təqdimatda onlayn iştirak edən AMEA Folklor İnstitutunun aparıcı elmi işçisi, Milli Məclisin deputatı, filologiya üzrə fəlsəfə doktoru, dosent Əziz Ələkbərli “Milli və mənəvi dəyərlər sistemində halay və yallıların yeri və ona yeni elmi-nəzəri baxış” başlıqlı məruzə edib.

“Məxsusi olaraq Azərbaycan, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası, o cümlədən Dərələyəz mahalı, bütövlükdə, Türk dünyasına məxsus halay və yallıların demək olar ki, yarandığı, inkişaf etdiyi, formalaşdığı aktiv məkandır”, – söyləyən alim bu baxımdan Naxçıvanın Şərur rayonunun daha nəzərəçarpan olduğunu qeyd edib.



Məruzəçi Aytən Cəfərovanın elmi araşdırmalarının əhatə dairəsindən söz açaraq vurğulayıb ki, yeni monoqrafiya Naxçıvan folklor mühitinin tədqiqata cəlb edilməsi baxımından faydalıdır.

Tədbirdə İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun əməkdaşları, filologiya üzrə fəlsəfə doktorları, dosentlər Nuray Əliyeva, Zülfiyyə İsmayıl, Aygün Orucova və Çinarə Rzayeva monoqrafiyaların folklorşünaslıq elmi istiqamətindəki dəyərləri, elmə gətirdiyi yenilikləri bağlı məruzə ediblər.

Sonda çıxış edən müəlliflər monoqrafiyaların ərsəyə gəlməsində müntəzəm olaraq iştirak etdikləri ekspedisiyaların mühüm önəmindən, tədqiqatçıların araşdırmalarının səmərəliliyini təmin etmək üçün yaradılan hərtərəfli şəraitdən bəhs edərək göstərilən diqqət və qayğıya görə muxtar respublika rəhbərinə minnətdarlıq ediblər.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

*ADA Universitetinin Kommunikasiya və Rəqəmsal Media proqramının rəhbəri Şəfəq Mehrəliyeva, Tələbə qəbulu şöbəsinin əməkdaşı Elşad Göyüşov Naxçıvan Dövlət Universitetində olublar.*

## ADA Universitetinin əməkdaşları Naxçıvan Dövlət Universitetində olublar



Tədbirdə universitetin Ümumi işlər üzrə prorektoru Xəyal Camalov qonaqları salamlayıb. Ali təhsil ocağının elmi potensialı, maddi-texniki bazası və bu ali məktəbdə yerinə yetirilmiş beynəlxalq layihələr haqqında məlumat verilib.

ADA Universiteti Tələbə qəbulu şöbəsinin əməkdaşı Elşad Göyüşov qeyd edib ki, universitetin tarixi 2006-cı ildən başlayır. Belə ki, 2006-cı ildə Azərbaycan Xarici İşlər Nazirliyinin nəzdində Azərbaycan Diplomatik Akademiyası adı altında ali təhsil müəssisəsi yaradılıb. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 13 yanvar tarixli Sərəncamı ilə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Diplomatik Akademiyasının və Azərbaycan Respublikasında İnformasiya Texnologiyaları Universitetinin əsasında ADA Universiteti yaradılıb. Diqqətə çatdırılıb ki, universitetin əsas məqsədi diplomatiya, ictimai münasibətlər, biznes, informasiya texnologiyaları və sistem mühəndisliyi üzrə qlobal liderlər hazırlamaqdır. Sonra qonaq tələbələri universitetə qəbul qaydaları ilə tanış edib. Vurğulanıb ki, aparılan mühazirənin əsas məqsədi magistr təhsil pilləsi haqqında tələbələri məlumatlandırmaqdır. Diqqətə çatdırılıb ki, ADA Universiteti qəbul zamanı yüksək nəticə göstərmiş tələbələrə universitetdə işləyərək həm təhsil haqqından azad olmaq, həm də təcrübə qazanmaq şansı verir.

ADA Kommunikasiya və Rəqəmsal Media proqramının rəhbəri Şəfəq Mehrəliyeva vurğulayıb ki, universitet seçmə fənlər və ümumi təhsil proqramı vasitəsilə əməkdaşlıq edərək və ünsiyyət quraraq həllər təklif edən yüksək potensiala malik məzunlar yetişdirir. Qarşılıqlı müzakirə şəklində keçirilən mühazirədə tələbələrin sualları cavablandırılıb.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

*Daha bir bahar bayramının astanasındayıq. Elimizə-obamıza isti nəfəsli günlərin həyatımızı rövnəqləndirməsinin, torpağın, suyun yeni vüsətlə oyanmasının soraqçısı bahar təravətli Novruz gəlir. Yazın gəlişi əsrlər boyunca xalqımız tərəfindən bayram əhvali-ruhiyyəsi ilə, Novruz ənənələri ilə qarşılanır. Novruzun özünəməxsus adət-ənənələri və simvolları xalqımızın həyat tərzinə, məişətinə hopub, bu gün də qorunub yaşadılır. Bu əziz bayramın əsas atributlarından biri də bayram süfrəsidir. Bir neçə ildir ki, Naxçıvan şəhərindəki Mərkəzi Bazarda təşkil olunan ənənəvi bayram yarmarkası da süfrələrimizdə əsl bayram bolluğu yaradır, Novruzu gülərüz, şən əhvali-ruhiyyə və könülxoşluğu ilə keçirməyə imkan verir. Təsadüfi deyil ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri fevralın 25-də muxtar respublikada təsərrüfat işlərinə hazırlıq və qarşıda duran vəzifələr barədə keçirilən müşavirədə İqtisadiyyat Nazirliyinə martın 20-nə qədər Naxçıvan şəhərində və rayon mərkəzlərində bayram yarmarkalarının təşkil edilməsi ilə bağlı xüsusi tapşırıq vermişdir.*

# Bayram ovqatlı, bahar təravətli yarmarka

Biz də bu bayram ərəfəsində – mart ayının 14-dən başlayaraq Mərkəzi Bazarda keçirilən yarmarkaya üz tutduq. Burada gördüyümüz qələbəlik, insanların simalarındakı məmnunluq deməyə əsas verirdi ki, onlar bu tədbirin təşkilindən çox razıdırlar. Biz də bayram sovqatları almağa gələn bir neçə nəfərlə görüşüb həmsöhbət olduq.

Naxçıvan şəhər sakini ***Zeynəb Bədirbəyli*** bildirdi ki, bayram üçün almaq istədiyimiz məhsulların hamısına burada rast gəlmək olar. Qiymətlər də münasibdir. Sevindirici haldır ki, belə keyfiyyətli məhsulların hamısı yerli istehsaldır. Bu da o deməkdir ki, builki Novruz bayramında da süfrələrimizi öz məhsullarımız bəzəyəcək.

Digər bir alıcı ***İsmayıl Əliyev*** də fikirlərini bizimlə bölüşərək yarmarkadan razı qaldığını və öz torpağımızın məhsulunun dadına və keyfiyyətinə görə heç bir yerdə yetişən məhsulla əvəz olunmadığını dedi. Müsahibimiz qiymətlərin münasibliyindən, bazarda məhsul bolluğu olduğundan söz açdı. O, yarmarkanın təşkilində əməyi olanlara minnətdarlığını bildirdi.

Yarmarkada olduğumuz müddətdə müxtəlif rayonlardan kənd təsərrüfatı məhsulları gətirmiş torpaq mülkiyyətçiləri, ailə təsərrüfatçıları ilə də görüşüb söhbət etdik. Ləziz təamları ilə seçilən Ordubad rayonunun yaşayış yerlərindən yarmarkaya xeyli məhsul çıxarılmışdı. Həmin rayonun Vənənd kənd sakini, ailə təsərrüfatçısı ***Yaqut Babayeva*** yarmarkada məşhur Ordubad paxlavası, şəkərburası, bir-birindən ləziz şirniyyatlar, Ordubad limonu, bir sözlə, 50 çeşiddə məhsulu piştaxta üzərinə səliqə ilə düzmüşdü. Piştaxtanın önü alıcılarla dolu idi. Təsərrüfat başçısının sözlərinə görə, Ordubadın brendinə çevrilən belə məhsulların Naxçıvanla yanaşı, ölkəmizin müxtəlif bölgələrində də alıcıları var. Keçirilən belə yarmarkaların təşkilindən sonra alıcılarımızın sayı daha da artır. Bu tədbirləri təşkil edənlərə təşəkkür edirəm.




Digər satıcı isə Şahbuz rayonunun Qızılqışlaq kənd sakini, ailə təsərrüfatçısı ***Məmməd Məmmədov***dur. Təsərrüfatçı yarmarkaya mürəbbələr, turşular, müxtəlif çeşiddə meyvə quruları, kompotlar, doşab, üzüm yarpağı, cemlər, can dərmanı otlar çıxarıb. Bu məhsulların ilin həyətyanı və pay torpağının bir hissəsindən istifadə etməklə hasilə gətirib, ehtiyac duyulan bəzi məhsulların xammalını rayonun digər torpaq mülkiyyətçilərindən alaraq emal edib. Məmməd Məmmədov bu məhsullara alıcılar tərəfindən böyük maraq göstərildiyini deyir.

***Şirzad Əkbərov*** isə Şahbuz rayonunun Yuxarı Qışlaq kəndindən öz ailə təsərrüfatında istehsal etdiyi heyvandarlıq məhsulları gətirib. Piştaxtadakı camış qatığı, qaymağı, şoru, pendirindən tutmuş, yumurta və beçəyə qədər bir çox məhsulların istehsalında ailə üzvlərinin hər birinin zəhməti olduğunu dedi. Müsahibimiz bayramqabağı belə yarmarkaların təşkilinin bolluq, əlverişli və mədəni ticarətin təşkili baxımından əhəmiyyət daşıdığını qeyd etdi. Həmsöhbətim ailə təsərrüfatlarında yetişdirilən məhsulların təbliği və satışında festivallarla yanaşı, belə yarmarkaların keçirilməsinin də böyük əhəmiyyəti olduğunu diqqətə çatdıraraq qeyd etdi ki, burada istehsalçılardan rüsum alınmır, onlar elektron tərəzi ilə təmin olunurlar. Bütün bunlar satıcıların ürəyincədir. Yarmarkaya gətirdiyi məhsulun çoxunu sataraq yaxşı qazanc əldə edə bilib.

Yarmarkaya Culfa rayonunun Yaycı kəndindən 20 çeşiddən çox məhsulla – alma, armud, alana, sucuq, ərik və tut quruları, cəviz, fındıq, mürəbbə və süfrələrin bəzəyi sayılacaq digər nemətlərlə gələn ***Sona Hüseynova*** burada kənd zəhmətkeşləri üçün əlverişli şəraitin yaradıldığını bildirir və əlavə edir ki, bayram yaxınlaşanda kəndlinin bazara çıxarmağa məhsulu yoxdursa, deməli, o, bayramaqədərki müddətdə tənbəllik edib. Çünki yazda, yayda, payızda toplanan məhsulun bir qismini istənilən kənd adamı Novruz azuqəsinə çevirə bilər və bu azuqəni bayramda yarmarkaya çıxararaq yaxşı gəlir əldə edər.



Alıcılardan biri, şəhər sakini, təqaüdçü-müəllim ***Zenfira Qurbanova*** ilə elə piştaxta önündəcə həmsöhbət olduq. O dedi ki, ötən illə müqayisədə qiymətlərdə artım yoxdur. Bazarda təklifi artırmaqla və tələbi daha dolğun ödəməklə qiymətlərin aşağı salınmasına nail olunub. Daha doğrusu, qiymətlər bazarlarda yaradılan bolluğa uyğun olaraq formalaşıb. Ona görə də bir çoxları kimi, mən də çətinlik çəkmədən ailəm üçün bayram bazarlığını etdim. Yarmarkanın təşkilində əməyi olanlara minnətdarlığımı bildirirəm.

Kəngərli rayonunun Çalxanqala kənd sakini ***Vüqar Məmmədov*** meyvədən hazırlanan araq və çaxırlarla piştaxtaları bəzəyib. Dedi ki, öz ailə təsərrüfatında istehsal etdiyi 12 növ müxtəlif meyvə araqları və çaxırlarını gətirib. Həmin məhsullardan yaxşı gəlir əldə edir. Burada diqqətimi çəkən xar tut və gilənar çaxırı oldu. Zövqoxşayan qablaşdırma ilə satışa çıxarılan məhsullar təkcə mənim yox, piştaxta önündən keçən hərkəsin diqqətini çəkirdi. Çoxları ayaq saxlayıb həm də piştaxtadakı qeyri-adi dekorasiyaya tamaşa edirdi. Vüqar Məmmədov yarmarkada bu məhsullara alıcıların böyük maraq göstərdiyini bildirir. Belə yarmarkaların təsərrüfat sahiblərinin istehsal etdiyi məhsulları tanıtmaq baxımından əhəmiyyətli olduğunu bildirən müsahibimiz yaradılan şəraitə görə minnətdarlığını bildirdi.

Məlumat üçün bildirək ki, şəhər əhalisinin kənd təsərrüfatı və ərzaq məhsullarına tələbatının daha dolğun ödənilməsi, istehlakçıların seçim imkanlarının artırılması, süni qiymət artımının qarşısının alınması məqsədilə Naxçıvan şəhərindəki Mərkəzi Bazarda Novruz bayramı münasibətilə keçirilən bayram yarmarkası mart ayının 20-dək davam edəcək. İlk gün yarmarkaya muxtar respublikada fəaliyyət göstərən 25 istehsal müəssisəsi tərəfindən 240 çeşiddə məhsul çıxarılıb. Eyni zamanda 208 ailə təsərrüfatı subyektləri tərəfindən məhsulların satışı təşkil olunub. İki gündür, davam edən yarmarkada 76 min 700 manat dəyərində satış olub.

**✍ Gülcamal TAHİROVA**
**✍ Telli MƏMMƏDOVA**

# Dezinfeksiya işləri aparılıb



Fevralın 25-də Naxçıvan Muxtar Respublikasında təsərrüfat işlərinə hazırlıq və qarşıda duran vəzifələr barədə keçirilən müşavirədə Ali Məclis Sədrinin aid qurumlar qarşısında qoyduğu tapşırıqlara uyğun olaraq epidemik prosesin idarə olunması məqsədilə hazırda bütün yaşayış məntəqələrində və əhali sıxlığı müşahidə olunan yerlərdə mərhələli şəkildə dezinfeksiya işləri aparılır.

Epidemioloji xidmətin vahid strukturuna daxil olan qurumların COVID-19 infeksiyası ilə mübarizədə digər müvafiq qurumlarla, xüsusən yerli icra hakimiyyətləri, Daxili İşlər, Fövqəladə Hallar nazirliklərinin, Dövlət Baytarlıq Xidmətinin tibb xidmətləri ilə birlikdə əlaqəli fəaliyyətinin təmin olunması bu sahədə mühüm rol oynayır. Pandemiyanın başlamasından keçən müddətdə COVID-19 aşkar olunan yaşayış və iş yerlərində, kollektivlərdə xəstəliyin geniş yayılmasının qarşısının alınması istiqamətində aparılan tədbirlər öz töhfələrini verməkdədir.

Hazırda muxtar respublikanın bütün bölgələrində olduğu kimi, Şərur rayonunda da infeksion və mövsümi xəstəliklərə, viruslara qarşı genişmiqyaslı profilaktik tədbirlər həyata keçirilir.

Şərur rayon Gigiyena və Epidemiologiya Şöbəsi müvafiq qurumlarla birlikdə yoluxma hallarının qarşısının alınması, bu sahədə aparılan müvafiq profilaktik tədbirlərin effektivliyinin yüksəldilməsi məqsədilə tibbi-profilaktik, dezinfeksiyaedici və digər qabaqlayıcı tədbirləri intensivləşdirir.

Şöbənin dezinfektorları tərəfindən, ilk növbədə, əhalinin sıx məskunlaşdığı yerlər, xüsusən əhalinin gediş-gəliş yerlərinin sıx olduğu ticarət mərkəzləri, iaşə obyektləri, ictimai yaşayış binalarının giriş hissələri, dəhlizlər, ətraf hissələri, məscid, Mərasim evi, təmizlik qutuları və onların ətrafı dərmanlanıb. Martın 1-dən 15-dək dərmanlama işləri 322 yerdə 22 min 925 kvadratmetr ərazini əhatə edib.

Aparılan dezinfeksiya işləri rayonda əhalinin sanitar-epidemioloji vəziyyətinin qorunması, sanitariya mədəniyyətinin formalaşmasına nail olmaqdır.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

*Naxçıvan Qarnizonu üzrə cüdo, yunan-Roma və sərbəst güləş birincilikləri keçirilib. Əvvəlcə məqsəd və qaydalar idmançı hərbi qulluqçuların diqqətinə çatdırılıb.*

# Hərbi qulluqçular arasında növbəti idman yarışları keçirilib

“Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır!” devizi altında keçirilən yarışlarda güləşin yunan-Roma, sərbəst və cüdo növlərində, ümumilikdə, 27 çəki dərəcəsində 16 komanda mübarizə aparıb. Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının hakimlərinin idarə etdikləri yarışlarda 264 idmançı iştirak edib.



Yekun nəticələrə əsasən cüdo üzrə komanda hesabında birinci yerdə Daxili Qoşunların “Naxçıvan” Əlahiddə Əməliyyat Briqadasının komandası, ikinci və üçüncü yerlərdə isə müvafiq olaraq Əlahiddə Ümumqoşun Ordunun motoatıcıları və xüsusi təyinatlıları qərarlaşıb.

Sərbəst güləş üzrə yarışlarda “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının komandası birinci, Daxili Qoşunların “Naxçıvan” Əlahiddə Əməliyyat Briqadasının komandası ikinci, Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlıları isə üçüncü yerə layiq görülüb.

Yunan-Roma güləşində Daxili Qoşunların “Naxçıvan” Əlahiddə Əməliyyat Briqadasının komandası birinci yerdə qərarlaşıb, Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlılarından ibarət komandaları ikinci və üçüncü yerləri bölüşüblər.

Şəxsi və komanda hesabında ilk üçlükdə yer alan qaliblərə kubok, diplom və fəxri fərmanlar təqdim edilib.

**Kənan CƏLİLOV**

# Nümunəvi sürücülər mükafatlandırılıb



Naxçıvan şəhərindəki Avtobus Parkında 2021-ci il ərzində muxtar respublika üzrə nümunəvi sərnişindaşıma xidməti göstərən sürücülərin qiymətli hədiyyələrlə mükafatlandırılması mərasimi keçirilib. Tədbirdə “Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidməti” publik hüquqi şəxsin direktoru Əli Hüseynəliyev çıxış edərək bildirib ki, Ali Məclis Sədrinin diqqət və qayğısı nəticəsində bu gün muxtar respublikada əldə olunan dinamik inkişaf digər sahələr kimi, nəqliyyata da öz müsbət təsirini göstərib.

Qeyd edilib ki, Ali Məclis Sədrinin muxtar respublikada turizmin inkişafı ilə əlaqədar verdiyi tapşırıqların icrası diqqətdə saxlanılmalı, sürücülərin davranışı, sərnişinlərlə rəftarı ilə qonaqlarda muxtar respublikamız haqqında ilkin rəy yaratdığı üçün onlar bu sahədə diqqətli olmalı, yüksək səviyyədə xidmət göstərməlidir.

Vurğulanıb ki, Ali Məclis Sədrinin tapşırığına əsasən “Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidməti” publik hüquqi şəxs tərəfindən mütəmadi olaraq nümunəvi xidmət göstərən, eləcə də ucqar dağ və sərhəd kəndlərinə işləyən sürücülərin fəaliyyətləri qiymətləndirilir, onlara lazımi köməklik göstərilir. Əli Hüseynəliyev 2021-ci il ərzində nümunəvi sərnişindaşıma xidməti göstərdiyinə görə sürücülərə təşəkkürünü bildirib, onlara qiymətli hədiyyələr təqdim edilib.

Tədbirdə 2021-ci il ərzində Naxçıvan Muxtar Respublikası ərazisində nümunəvi sərnişindaşıma xidməti göstərdiyinə və ictimai işlərdə fəal iştirak etdiyinə görə “İlin ən yaxşı taksi sürücüsü” və “İlin ən yaxşı avtobus sürücüsü” nominasiyaları üzrə diplom, nümunəvi sərnişindaşıma xidməti göstərdiyinə, müəyyən olunmuş qaydalar çərçivəsində və ictimai işlərdə fəaliyyətinə görə fəxri fərman olmaqla, ümumilikdə, 50 sürücüyə qiymətli hədiyyələr, oxunması zəruri olan kitablar təqdim edilib, həmçinin taksi sürücülərinə muxtar respublikanın turizm mərkəzlərini, maddi mədəni abidələrini əks etdirən bukletlər paylanıb.

Mükafatlandırılan sürücülər adından Nazim Əşrəfov və Rauf İbadov göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdarlıq edib.

**✍ Nail ƏSGƏROV**


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 243